# "Azərbaycan İpək yolu boyunca əlaqələrin təmin edilməsinə mühüm töhfələr verir"

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti sentyabrın 6-da Çinin Qansu əyalətinin Dunhuan şəhərində təşkil olunan 6-cı Beynəlxalq İpək Yolu Mədəniyyət Sərgisinin açılış mərasiminə qatılıb.

Tədbir çərçivəsində mədəniyyət naziri Adil Kərimli 6-cı Beynəlxalq İpək Yolu Mədəniyyət Sərgisi çərçivəsində təşkil edilən İpək yolu mədəni irsi və yeni sivilizasiya formasının qurulmasına dair forumda çıxış edib.

Bu mötəbər tədbirə dəvətə və yüksək qonaqpərvərliyə görə təşkilat komitəsinə təşəkkürünü bildirən nazir Çinə səfərinin çox məhsuldar və yaddaqalan olduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, "İpək yolu boyu xalqların milli mədəni dəyərlərinin qorunub saxlanılması, ənənələrə və birgə məqsədlərə sadiqlik xüsusilə qloballaşma dövründə dünya sivilizasiyasının sabitliyi və tərəqqisinə böyük töhfə verir.

Vurğulanıb ki, tarixən İpək yolu boyunca əlaqənin təmin edilməsinə mühüm töhfələr verən Azərbaycan keçmişdəki missiyasını bu gün də davam etdirir: "Azərbaycan Böyük İpək yolu ilə bağlı çoxsaylı beynəlxalq konfranslara evsahibliyi edib və iri regional infrastruktur layihələrinin təşəbbüskarı olub. Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Çindən Qərbə daşımalar üçün əlverişli marşrut təklif edir. Eyni zamanda Azərbaycanda İpək yolu mədəni irsinin qorunub saxlanılmasına böyük əhəmiyyət verilir. Milli səviyyədə tarixi abidələrin qorunmasını təmin etmək üçün müvafiq qanunvericilik və institusional addımlar atılıb. Azərbaycan həm də UNESCO-nun İpək Yolu Proqramının fəal üzvüdür".

Azərbaycanın mədəniyyətlər arasında dialoqa da xüsusi önəm verdiyini diqqətə çatdıran nazir Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" haqqında məlumat verib. Hazırda BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ICESCO-nun tərəfdaş olduğu Bakı Prosesi qlobal mədəniyyətlərarası dialoq platformasına çevrilib.

Nazir çıxışının sonunda forumun işinə uğurlar arzulayıb.

Azərbaycan.- 2023.- 7 sentyabr.- S.7.